# "Heç kəs öz iradəsini bizim üzərimizə qoya bilməz"



***Azərbaycan cəbhədə olduğu kimi, informasiya sahəsində də mühüm qələbə qazandı. Ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması erməni yalanlarını alt-üst etdi. Xüsusilə, İkinci Qarabağ müharibəsində Ermənistanın siyasi-hərbi rəhbərliyi yalan informasiyalarla həm öz xalqını, həm də dünya ictimaiyyətini aldatmağa cəhd edir, bununla da zəif, aciz olduğunu ört-basdır etməyə çalışırdı. Lakin həmin vaxt dünyanın 30-dan çox aparıcı kütləvi informasiya vasitəsinə müsahibə verən Prezident İlham Əliyevin hər şeyi olduğu kimi çatdırması Ermənistanın siyasi-hərbi rəhbərliyinin yalanlarını ifşa etdi.***

Prezidentimizin informasiya cəbhəsindəki uğurları bu gün də davam edir. Yaxın günlərdə dövlət başçımız BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələrdəki çıxışında, Rusiyanın nüfuzlu "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenkoya, Türkiyənin Anadolu Agentliyinə və Fransanın "France-24" televiziya kanalına müsahibələrində də, həmçinin Serbiyanın paytaxtı Belqradda Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilmiş yüksək səviyyəli toplantıdakı çıxışında bir daha Ermənistanın işğalçı siyasətindən, faşist xislətindən, ərazi iddialarından , bir sıra ölkələrin işğalçıya dəstək göstərməsindən söhbət açdı. Ölkə başçısı, həmçinin Azərbaycanın beynəlxalq aləmdəki əlaqələrinin getdikcə genişləndiyni, mövqeyinin möhkəmləndiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində bu məsələlərə, xüsusilə son vaxtlar Azərbaycan – İran münasibətlərində yaranmış gərginliyə də aydınlıq gətirdi. Dedi ki, heç kəs öz iradəsini bizim üzərimizə qoya bilməz. Azərbaycan öz sərhədlərinə hörmətlə yanaşılmasını istəyir.

Dövlət başçımız qəzetin əməkdaşının İranla Azərbaycan arasında müəyyən problemlərin olması ilə əlaqədar sualına cavab verərkən bildirdi ki, baş verənlərin səbəbi Azərbaycanın bəzi digər ölkələrlə olan münasibətlərində deyil. Çünki bizim xarici siyasətimiz çox açıq, şəffaf, sabit və müstəqildir. Heç bir digər ölkə Azərbaycanın qərarlarına təsir edə bilməz və ya buna çalışmalı deyil. Qərarlar burada – Bakıda Azərbaycanın milli maraqları əsasında Prezident İlham Əliyev tərəfindən verilir. Əgər kimsə süni bəhanədən istifadə etməyə çalışaraq, Azərbaycanı digər ölkələrlə münasibətlərinin olmasında günahlandırırsa, bu cəhdlər boşa çıxıb.

Dövlət başçımız baş verənlərin səbəbinin çox sadə olduğunu bildirdi: "Qarabağın azad edilməsindən sonra biz Ermənistanla öz sərhədimizə çıxdıq. Biz öz sərhədimizə gəlib, orada yerləşdik. Ermənistanın bəzi şəhərləri arasındakı yol Azərbaycanın ərazisindən keçir. Bu yoldan Qarabağa, bizim ərazimizə malların qeyri-qanuni daşınmasında istifadə olunduğunu görməyə başladıq. Bu, qəbuledilməzdir. Biz öz sərhədlərimizə hörmətlə yanaşılmasını tələb edirik. Biz hər hansı digər ölkənin sərhədini qeyri-qanuni olaraq pozmuruq. Beləliklə, mesajımız çox sadə idi - dayandırın bunu! Biz ictimaiyyətə açıqlamadan çox dostcasına bildirdik ki, bunu dayandırsınlar. Çünki bu, düzgün deyil. Biz həmin yollara nəzarət edirik və görürük ki, aldatmağın, "bunun baş vermədiyini" söyləməyin yeri yoxdur. Əfsuslar olsun ki, bu xəbərdarlığa adekvat cavab verilmədi. Sonra biz ikinci addımı atmalı olduq. Biz diplomatik nota hazırladıq, səfiri dəvət etdik və bunu ictimaiyyətə açıqladıq ki, bunu dayandıraq. Amma, əslində, bu, daha pis forma aldı, İrandan Qarabağa gedən yük maşınlarının sayı artdı".

Möhtərəm Prezidentimiz bu addımın zərbə, bilərəkdən hörmətsizlik olduğunu bildirdi. Sonra tamamilə qanuni hesab edilən başqa tədbirlərin görüldüyünü və bunun qonşu ölkədə böyük qarışıqlığa, lazımsız hərəkətlərə səbəb olduğunu bildirdi. Dedi ki, bundan sonra yersiz bəyanatlar verildi, hədələr edildi, sərhədimizə yaxın hərbi təlimlər keçirildi. Müəmmalı idi ki, ilk dəfə hərbi təlimlərin planlı tədbir olduğu deyildi. Sonra isə deyildi ki, bunlar bizə nəyi isə nümayiş etdirmək üçün edilib. Möhtərəm Prezidentimiz qəti mövqeyini bildirərək dedi ki, heç kəs öz iradəsini bizim üzərimizə qoya bilməz. Azərbaycanın xarici siyasət prioriteti qonşu ölkələrlə münasibətlərdir.

Möhtərəm Prezidentimiz Azərbaycana yönələn bütün ittihamları rədd etdiyini bildirdi və qəti mövqeyini bildirdi: " Biz digərlərinə etdiyimiz hörmətin özümüzə də olmasını tələb edirik".

***Məlahət İBRAHİMQIZI,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti 2021.- 15 oktyabr.- S.5.